

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 194 (21.604)

*15 oktyabr 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin oktyabrın 14-də rəsmi qarşılanma mərasimi olub.

Pakistanın və Azərbaycanın dövlət himnləri səslənib.

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Nəvaz Şərif fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Məhəmməd Nəvaz Şərifə, Pakistan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif ilə məhdud tərkibdə görüşü olub.

Məhdud tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif ilə geniş tərkibdə danışıqları olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif mətbuata bəyanatlarla çıxış ediblər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olmuşdur





Oktyabrın 14-də – Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Şöhrət" ordeninin, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Tərəqqi", "Dövlət qulluğunda fərqlənməyə görə", "İgidliyə görə" və "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Azərbaycanda dövlət müstəqilliyinin 25-ci ildönümü qeyd olunur. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Dövlət müstəqilliyini qorumaq onu əldə etməkdən qat-qat çətindir".*** Bu fikir 1991-1993-cü illərdə Azərbaycanda öz təsdiqini tapdı. Artıq 1993-cü ildə Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında idi. Həmin dövrdə xalqın çağırışına səs verən ümummilli liderimiz Heydər Əliyev yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıtdı. Bundan sonra Azərbaycanda sabitlik yarandıldı, ölkəmizin hərtərəfli inkişafının əsası qoyuldu və dövlət müstəqilliyimiz qorunub saxlanıldı. Ölkə Prezidenti cənab İlham Əliyevin ulu öndərin yolunu uğurla davam etdirməsinin nəticəsidir ki, bu gün Azərbaycan dövlət müstəqilliyinin 25-ci ildönümünü qeyd edir.

Ali Məclisin Sədri demişdir: Azərbaycanın dövlət müstəqilliyi ümummilli liderimizin siyasi xəttinin ətrafında birləşən insanların zəhməti nəticəsində qorundu və yaşadıldı. Dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, ölkəmizin inkişafında hər bir Azərbaycan vətəndaşının zəhməti vardır. Öz fəaliyyəti ilə seçilən, fərqlənən insanların əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir. Bu gün dövlət mükafatları təqdim olunanlar da müxtəlif sahələrdə çalışan, öz işi ilə fərqlənən və əməyi qiymətləndirilən insanlardır.

Ali Məclisin Sədri ölkəmizin inkişafındakı xidmətlərə görə təltif olunanlara təşəkkür etmiş, onları Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümü münasibətilə təbrik etmiş və gələcək işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri orden və medalların, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan Aysel Əliyeva, Zahir Fətullayev, Əhəd Cəfərli, Hüseyn Bağırov, Rafiq Novruzov, Əlövsət Baxşıyev, Niyazi Novruzov, Mənsum Əhmədov, Nəriman İbrahimov, Hafiz Yaqubov, Əbil Əbilov və Əli Həsənov minnətdarlıq edərək demişlər ki, müstəqilliyin bəhrəsi olan inkişaf bütün sahələri əhatə etmişdir. İnsanların rahat yaşaması və işləməsi üçün hərtərəfli şərait vardır. Bu gün müstəqil Azərbaycanın inkişafında pay sahibi olmaq hər bir vətəndaş üçün ikiqat qürur və şərəfdir. Çəkilən zəhmət qarşısında insanların əməyinin yüksək qiymətləndirilməsi, dövlət mükafatlarına layiq görülməsi onları daha da ruhlandırır. Təltif olunanlar bildirmişlər ki, bundan sonra da ümummilli liderimizin siyasi xəttinə sadiq qalacaq, ölkəmizin, eləcə də doğma Naxçıvanın inkişafı naminə səylə çalışacaq, göstərilən etimadı doğruldacaqlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatlarının hesabat-seçki yığıncaqları keçirilir

***Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının Bənəniyar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi, kənd həkim ambulatoriyası, tam orta və musiqi məktəbləri, rayon Suvarma Sistemləri İdarəsi ilk partiya təşkilatlarının birgə hesabat-seçki yığıncağı keçirilib.***

Yığıncaqda ilk partiya təşkilatları sədrlərinin hesabatları dinlənilib.

Qeyd olunub ki, bu gün ölkəmiz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi yolla inamla irəliləyir, günü-gündən öz müstəqilliyini möhkəmləndirir, inkişafın yeni zirvələrinə doğru uğurla addımlayır. Bu prosesdə muxtar respublikamızın rayon və kəndləri ön sırada gedir.

Belə ki, regionumuzun bugünkü inkişaf və tərəqqisindən Culfa rayonuna və onun kəndlərinə də böyük pay düşüb. Bu sırada Bənəniyar kəndini də xüsusi qeyd etmək lazımdır. Burada kompleks quruculuq tədbirləri aparılıb, kənd müasirliyə qovuşub.

Vurğulanıb ki, təşkilatlar öz fəaliyyətlərini partiyanın Nizamnaməsi və Proqramı, partiyanın yuxarı orqanlarının qərar, göstəriş və təlimatları əsasında qurublar. Ölkədə və muxtar respublikada həyata keçirilən siyasi xəttin təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə səy göstərən təşkilatlar siyasi-ideoloji işi daim diqqət mərkəzində saxlayır, partiya üzvlərinin siyasi hazırlıq səviyyəsinin yüksəldilməsini, onlarda dövlətçilik əqidəsinin möhkəmləndirilməsini başlıca vəzifələrdən biri hesab edirlər.

İlk partiya təşkilatlarının birillik fəaliyyəti qənaətbəxş hesab olunub, həmin təşkilatların Yeni Azərbaycan Partiyası Bənəniyar kənd ərazi ilk partiya təşkilatında birləşdirilməsi məsələsinə baxılıb, qərar qəbul edilib.

Hesabat-seçki yığıncağında Yeni Azərbaycan Partiyası Bənəniyar kənd ərazi ilk təşkilatının 9 nəfərdən ibarət yeni idarə heyəti, təşkilatın sədr və müavinləri, 5 nəfər Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının X konfransına nümayəndə seçilib.

* * *

Həmin gün Yeni Azərbaycan Partiyası Babək Rayon Mərkəzi Xəstəxanası, Şahbuz şəhər ərazi ilk təşkilatlarında da hesabat-seçki yığıncaqları keçirilib.

Yığıncaqlarda təşkilat sədrlərinin hesabat məruzələri dinlənilib, təşkilatların idarə heyətlərinin üzvləri, sədrləri, Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının konfranslarına nümayəndələr seçilib.

**Xəbərlər şöbəsi**

# 15 oktyabr 2003-cü il müstəqil Azərbaycan Respublikasının yeni yüksəliş dövrünün başlanğıc günüdür

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir.***

*Müstəqillik qazandığımız ötən 25 il ərzində ölkəmiz siyasi-iqtisadi və sosial baxımdan böyük bir inkişaf yolu keçmişdir. Görkəmli siyasətçilər Azərbaycanın 2003-cü ildən sonrakı dövrünü tərəqqi və nailiyyətlər dövrü kimi qiymətləndirirlər. Çünki Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi bu illərdə respublikamız möhtəşəm uğurlara imza atmışdır. Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində ulu öndərimiz Heydər Əliyev Azərbaycan xalqına müraciətində deyirdi:* ***“...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.***

Görkəmli dövlət xadimi Heydər Əliyevin quruculuq yolunu zənginləşdirərək davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasını qüdrətli, sürətlə inkişaf edən, daim güclənən, beynəlxalq aləmdə nüfuzu durmadan artan bir dövlətə çevirməklə ulu öndərimizin arzularını reallaşdırmışdır.

Cənab İlham Əliyev 13 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də seçicilərin böyük səs çoxluğu ilə dövlət başçısı seçildikdən sonra verdiyi bütün vədləri yerinə yetirərək yüksələn dövlətin nüfuzlu liderinə çevrilmişdir. 1993-cü ilin oktyabrında ulu öndərin Prezident seçilməsi 30 ildən artıq xalqına xidmət edən dahi şəxsiyyətin Azərbaycanı düşdüyü ağır bəlalardan çıxarmaq və onun inkişaf yolunu müəyyənləşdirmək iqtidarına malik yeganə lider olmasının, 2003-cü ildə cənab İlham Əliyevin Prezident seçilməsi isə onun dahi şəxsiyyətin layiqli davamçısı olması və prezidentlik dövrünə qədər qazandığı böyük xalq etimadının nəticəsi idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir”.***

Cənab İlham Əliyevin keçdiyi həyat yolu, intellektual səviyyəsi və müasir dövrün siyasi xadimləri üçün xarakterik olan bütün yüksək keyfiyyətləri mənimsəməsi onun qələbəsini təmin etmişdir. Azərbaycan xalqı cənab İlham Əliyevin diplomatik məharətinə, onun Milli Məclisin deputatı kimi Avropa Şurasının Parlament Assambleyasındakı daimi nümayəndə heyətimizin başçısı olarkən əldə etdiyi uğurlara yaxşı bələd idi. Məhz cənab İlham Əliyevin prinsipiallığı, təşəbbüskarlığı və diplomatik fəallığı nəticəsində AŞPA münaqişə tarixində ilk dəfə olaraq Ermənistanı işğalçı dövlət kimi tanıyan rəsmi sənəd qəbul etmişdi.

Cənab İlham Əliyev həm ARDNŞ-ın birinci vitse-prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, həm də Azərbaycan Respublikasının Baş naziri kimi çalışdığı bütün vəzifələrdə mükəmməl idarəçilik təcrübəsi qazanmışdı. 1999-cu ildə Yeni Azərbaycan Partiyasının sədr müavini, 2001-ci ildə isə sədrin birinci müavini seçilməsindən sonra siyasi həyatda nümayiş etdirdiyi fəallıq onun liderlik keyfiyyətlərini də ortaya qoymuşdu. Beləliklə, öz diplomatik uğurları, xarizmatik keyfiyyətləri, idarəetmə məharəti və iqtisadi proseslərə dərindən bələd olması ilə xalqın liderinə çevrilmiş cənab İlham Əliyevin 2003-cü ilin oktyabrındakı qələbəsi şəksiz idi. Xalq bu gözləntini reallaşdırdı.

***“Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam”***, – deyən cənab İlham Əliyev qısa müddət ərzində ümumxalq etimadı qazanmışdır. Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması, insan hüquqlarının daha geniş şəkildə qorunması, seçki təcrübəsinin təkmilləşdirilməsi və digər addımlar dövlət başçısı İlham Əliyevin siyasi fəaliyyətinin əsas qayəsini təşkil edirdi. Əhalinin sosial rifahı diqqət mərkəzində saxlanılmış, minimum əməkhaqqı və pensiyalar artırılmış, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun yüksəldilməsi, mövqelərinin möhkəmləndirilməsi, əlaqələrinin daha da genişləndirilməsi istiqamətində qətiyyətli addımlar atılmışdır.

Görkəmli siyasət xadimlərinin ortaq fikri belədir ki, 2003-cü ildən iqtisadi strategiyanın yeni prioritetləri və inkişaf perspektivləri müəyyən edilmişdir. Ölkədə sosial-iqtisadi inkişafın davamlı dinamikasını təmin etmək üçün qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi, infrastruktur obyektlərinin beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulması əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Ölkədə əlverişli investisiya mühiti və yeni iş yerləri yaratmaq üçün digər sahələrlə yanaşı, azad sahibkarlıq fəaliyyətinin inkişafını təmin etmək, sahibkarlıq strukturlarının dövlət köməyi vasitəsilə daha da təkmilləşdirilməsi prioritet vəzifələrdən idi. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək və aqrar sektorda islahatları dərinləşdirmək, əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, müasirtipli müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi üçün hüquqi baza yaratmışdır.

Dövlət proqramlarının qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi özünü bütün sahələrdə göstərmişdir. Regionlarda dünya standartlarına cavab verən istehsal və sənaye müəssisələri yaradılmışdır. Bu gün Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, xarici investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması məsələləri Azərbaycan Prezidentinin yeritdiyi sosial-iqtisadi siyasətin prioritet istiqamətləri kimi diqqəti cəlb edir. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində 2004-cü ildən bəri yaradılan çoxsaylı yeni iş yerləri işsizliyin kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdur.

Bu yaxınlarda dünyanın bir nömrəli iqtisadi forumu – Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünyada 37-ci yerə layiq görmüşdür. Keçən il isə ölkəmiz 40-cı yerdə idi. Bu, böyük nailiyyətdir. Xüsusilə də dünyada böhran yaşanan bir dövrdə bu göstərici tarixi göstəricidir. Konkret faktlara müraciət etsək görərik ki, ölkəmizdə 2016-cı ildə ümumi daxili məhsul əvvəlki illə müqayisədə 1 faizdən, sənaye istehsalı 2,4, qeyri-neft sənayesi isə 8,4 faizdən çox artmışdır. 154 min iş yeri yaradılmışdır. Bunun 121 mini daimi iş yeridir.

Bu illər ərzində Azərbaycanın qazandığı ən böyük uğurlardan biri də Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşasının başa çatdırılmasıdır. Dövlət başçısı həmin layihələrin reallaşması üçün bütün zəruri addımları atmışdır. Ardınca Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlanmışdır. Hazırda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Türkiyə, Yaponiya, Norveç, Almaniya, Çin və digər inkişaf etmiş dövlətlər Azərbaycanla neft və qeyri-neft sahəsində mühüm iqtisadi layihələrdə iştirak edirlər.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət ölkəmizin böyük uğurlar qazanmasına xidmət edir. Məqsəd və vəzifələri daim təkmilləşdirilən, elmi əsaslara söykənən xarici siyasət kursumuz bizə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, faydalı əməkdaşlığı genişləndirməyə və əksər ölkələrlə diplomatik münasibətləri inkişaf etdirməyə imkan verir. Ötən illər ərzində Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun xeyli artdığını göstərən əsas məqamlardan biri respublikamızın 2011-ci il oktyabrın 24-də Birləşmiş Millətlər Təşkilatına üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsidir. Azərbaycan 2012-2013-cü illəri əhatə edən ikiillik fəaliyyəti dövründə dünyada təhlükəsizliyin və sülhün bərqərar olması, eləcə də sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına dair beynəlxalq gündəlikdə duran ən aktual məsələlər üzrə müxtəlif səviyyələrdə müzakirələr və qərarların qəbul edilməsində bilavasitə iştirak etmişdir. Bu iki il ərzində Azərbaycan iki dəfə – 2012-ci ilin mayında və 2013-cü ilin oktyabrında Təhlükəsizlik Şurasına sədrlik etmişdir.

Bu gün Azərbaycan yüksəksəviyyəli beynəlxalq tədbirlərin keçirildiyi bir məkandır. Bu yaxınlarda V Bakı Beynəlxalq Humanitar Forumu öz işini yekunlaşdırmış, forumda 80-ə yaxın ölkədən 400-dən çox tanınmış xadim iştirak etmişdir. Forumda Azərbaycanda görülən işlər, xüsusilə multikulturalizmlə bağlı həyata keçirilmiş tədbirlər yüksək qiymətləndirilmişdir. Beynəlxalq tədbirlər sırasında BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu xüsusilə qeyd etmək lazımdır.

Azərbaycanda böyük idman yarışlarının keçirilməsi də bir ənənə şəklini almışdır. Bakıda keçirilən birinci Avropa Oyunları, 500 milyon auditoriyası olan “Formula-1” yarışı bunun əyani ifadəsidir. “Formula-1” qrupunun rəhbərləri də qeyd etmişlər ki, ən gözəl yarış Azərbaycanda keçirilmişdir. İlk dəfə olaraq Azərbaycanda ən yaxşı təşkil edilən Ümumdünya Şahmat Olimpiadasına dünyanın 200-ə yaxın ölkəsindən nümayəndələr gəlmişdi.

Bu il ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendumda xalqımız böyük ruh yüksəkliyi ilə iştirak etmişdir. Referendumu yüzdən çox xarici müşahidəçi izləmişdir. Müşahidə aparan beynəlxalq qurumlar, xüsusilə Avropa Şurası Parlament Assambleyasının nümayəndələri referenduma çox yüksək qiymət vermişlər. Bu referendum Azərbaycan xalqının Prezident İlham Əliyevin həyata keçirdiyi islahatları dəstəklədiyini, onu özünün şəriksiz lideri kimi gördüyünü bir daha sübut etmişdir.

Prezidentlik fəaliyyəti dövründə cənab İlham Əliyevin düzgün müəyyənləşdirilmiş xarici siyasət kursu Ermənistanı dünyada işğalçı dövlət kimi tanıtmışdır. Bu gün BMT, Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər beynəlxalq təşkilatlar, həmçinin aparıcı dövlətlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə və Azərbaycanın ərazi bütövlüyünün bərpası şərtiylə həll olunmasını tələb edirlər. Azərbaycan xalqının XX əsrdə yaşadığı ən dəhşətli faciələrdən biri olan Xocalı soyqırımının tanıdılması, Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində də bir sıra işlər görülmüşdür. Belə ki, Amerika Birləşmiş Ştatlarının 20-yə yaxın ştatında, Kolumbiya, Çexiya, Rumıniya, Serbiya, Honduras, Peru, Panama, Pakistan, Meksika, İordaniya, Bosniya və Herseqovina parlamentlərində Xocalı soyqırımı rəsmən tanınmış, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə edilmişdir.

Azərbaycan Prezidentinin yürütdüyü siyasət nəticəsində dünyada və Avropada iqtisadi maliyyə böhranı davam etdiyi halda Azərbaycanda hər il iqtisadi inkişaf müşahidə olunmuş və bu ilin doqquz ayında ümumi daxili məhsul istehsalında artım davam etmişdir. Dünyada mövcud olan vəziyyətlə müqayisədə bu, çox müsbət göstəricidir.

Dövlətin əsas sütunlarından birini təşkil edən ordu hər bir ölkənin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin təminatçısıdır. Azərbaycanda mütəşəkkil, güclü və qüdrətli milli ordunun əsasını qoyan ümummilli liderimizin ideyalarını davam etdirən Prezident İlham Əliyev ordu quruculuğunu prioritet sahə kimi müəyyənləşdirmişdir. Ali Baş Komandanın rəhbərliyi ilə hərbi birləşmələrin maddi-texniki bazası daha da gücləndirilmiş, ən müasir texnikalar alınmış, milli müdafiə sənayesi formalaşdırılmışdır. Hazırda Azərbaycan müxtəlif hərbi təyinatlı məhsul, o cümlədən bütün növ döyüş sursatı, müxtəlif texnika və silahlar istehsal edir. Silahlı Qüvvələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması məqsədilə peşəkar zabit korpusunun formalaşdırılması da diqqət mərkəzində saxlanılmışdır. Beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin inkişafına yönəlmiş tədbirlər bu istiqamətdə atılan mühüm addım olmuş, kursant və zabit heyətinin hərbi sirlərə dərindən yiyələnməsi ordumuzun peşəkarlıq səviyyəsinin yüksəlməsinə yol açmışdır. Bütün bunlar Azərbaycan Silahlı Qüvvələrini Cənubi Qafqazda ən güclü orduya çevirmişdir.

Konseptual əsasları ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf xətti Naxçıvan Muxtar Respublikasının timsalında əyani şəkildə özünü göstərməkdədir. Heydər Əliyev quruculuq xəttinin muxtar respublikada uğurla həyata keçirilməsi nəticəsində Naxçıvan bu gün öz inkişafının yeni mərhələsini yaşayır. Bunun nəticəsidir ki, muxtar respublikada 2016-cı ilin yanvar-avqust aylarında 1 milyard 602 milyon 760 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. 690 milyon 988 min manat həcmində sənaye məhsulu, 266 milyon 35 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-avqust ayları ərzində muxtar respublikada əsas kapitala 628 milyon 260 min manat həcmində investisiya yönəldilmişdir. İnvestisiyaların 583 milyon 503 min manatı və ya 92,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

Dövlət başçısı müntəzəm olaraq Naxçıvan Muxtar Respublikasına səfərə gəlir, elm, təhsil və mədəniyyət, idman, səhiyyə, sosial təminat, energetika, meliorasiya, yol tikintisi və sahibkarlıq, eləcə də hərbi quruculuq sahələrini əhatə edən obyektlərin açılışında iştirak edir. Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileylərinin dövlət səviyyəsində qeyd olunması haqqında sərəncamlar imzalamış, Naxçıvanın tarixinə dair yeni elmi araşdırmalar aparılmış, milli dəyərlərin inkişafı, tarixi abidələrin qorunması və bərpası istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

*Bir sözlə, ölkəmizin uğurlu iqtisadi inkişafı üçün bütün lazımi tədbirlər görülmüşdür. Oktyabrın 9-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dövlət başçısı demişdir:* ***“Əminəm ki, qarşıya qoyulan bütün vəzifələri icra etmək üçün bizdə kifayət qədər iradə, güc var. Xalq bizim siyasətimizi dəstəkləyir... Bizim yolumuz açıqdır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik”.***

**“Şərq qapısı”**

# “Azərbaycan Respublikasının dövlət müstəqilliyi dönməz və əbədidir” mövzusunda elmi konfrans

***1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilməklə milli müstəqilliyimiz uzun illərdən sonra yenidən bərpa olundu. Müstəqilliyimiz təhlükə altında olduğu zaman isə ulu öndər Heydər Əliyev xalqın təkidli xahişi ilə hakimiyyətə gələrək Azərbaycanı bəlalardan qurtardı, müstəqilliyimizi əbədi və dönməz etdi.***

Bu fikirləri oktyabrın 13-də AMEA Naxçıvan Bölməsində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə keçirilən “Azərbaycan Respublikasının dövlət müstəqilliyi dönməz və əbədidir” adlı elmi konfransda bölmənin sədri, akademik İsmayıl Hacıyev səsləndirib.



Akademik bildirib ki, Azərbaycan qədim dövlətçilik ənənələrinə malik olan bir ölkədir. Bu dövlətçilik ənənələrinin məntiqi davamı olaraq 98 il bundan əvvəl qurulan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika olub. Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparıb, lakin məlum səbəblərdən Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində mühüm rol oynayan cümhuriyyətin ömrü çox qısa olub. 1991-ci il oktyabrın 18-də Azərbaycanın keçmiş Ali Sovetinin sessiyasında Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilməklə Azərbaycanın dövlət müstəqilliyi uzun illərdən sonra yenidən bərpa olunub.

Azərbaycanın 1993-cü ildə siyasi çəkişmələrə, vətəndaş qarşıdurmasına səhnə olduğunu vurğulayan İsmayıl Hacıyev deyib ki, həmin dövrdə ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik, anarxiya, xaos, özbaşınalıq hökm sürürdü. Ölkə tədricən parçalanmaq həddinə çatmışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət 1993-cü il iyunun 15-də ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi.

Qeyd olunub ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan 1990-cı illərin əvvəllərində milli müstəqillik hərəkatının beşiyi olub. Bu gün Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ümummilli liderin siyasi dəst-xəttini rəhbər tutaraq sürətlə inkişaf etməkdədir.

Sonra AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev “Müstəqilliyə aparan yol”, həmin institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov “Dövlət müstəqilliyinin əldə olunması tarixi nailiyyətdir”, şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev “Ümummilli lider Heydər Əliyev və dövlət müstəqilliyinin möhkəmləndirilməsi”, şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Asəf Orucov “Naxçıvan Muxtar Respublikası müstəqillik illərində” mövzularında çıxışlar ediblər.

Çıxışlarda qeyd edilib ki, dahi şəxsiyyət hələ respublikamız keçmiş Sovet İttifaqının tərkibində olduğu zaman böyük siyasi uzaqgörənliklə gələcək müstəqil Azərbaycan üçün sosial-iqtisadi baza hazırlayırdı. Azərbaycanın bugünkü inkişaf yolu Onun müəyyən etdiyi siyasi xəttin ardıcıl davam etdirilməsinin nəticəsidir. Ulu öndərin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı güclənib, inkişaf edib. Bu inkişaf Naxçıvan Muxtar Respublikasında da özünü göstərməkdədir. Son 20 ildə iqtisadiyyatın dinamik inkişafını şərtləndirən məqsədyönlü tədbirlər əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb, muxtar respublikamızda abadlıq-quruculuq işləri geniş vüsət alıb, Naxçıvan çiçəklənən, dinamik inkişaf edən bir diyara çevrilib.

Konfransa yekun vuran AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev vurğulayıb ki, ötən illər ərzində müstəqilliyimiz daha da möhkəmləndirilib, ölkənin sosial-iqtisadi inkişafı istiqamətində məqsədyönlü işlər görülüb. Həyata keçirilən uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz, o cümlədən muxtar respublikamız böyük nailiyyətlərə imza atıb. Bütün bunlar müstəqilliyin və uğurla davam etdirilən alternativsiz siyasi xəttin bəhrələridir. Xalq bu siyasəti yekdilliklə dəstəkləyir. Sentyabrın 26-da ümumxalq səsverməsində (referendumda) seçicilərin böyük əksəriyyətinin Konstitusiyaya əlavə və dəyişiklikləri dəstəkləməsi də bunun bariz nümunəsidir.

# Naxçıvanda “Dövlət orqanları və media arasında əlaqələrin genişləndirilməsi” mövzusunda konfrans keçirilib

*Oktyabrın 14-də Naxçıvan şəhərində “Dövlət orqanları və media arasında əlaqələrin genişləndirilməsi” mövzusunda konfrans keçirilib.*





Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə Naxçıvan Dövlət Texniki Kollecinin akt zalında keçirilən konfransda ölkəmizdə fəaliyyət göstərən aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, eləcə də muxtar respublikadakı nazirlik, komitə və agentliklərin mətbuat xidmətlərinin əməkdaşları, Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfrans iştirakçılarını və qonaqları salamlayıb, təşkilatçılara minnətdarlığını bildirib, konfransın işinə uğurlar arzulayıb.

Rəhman Məmmədov qeyd edib ki, dövlət orqanları və media arasında əlaqələrin təməli ümummilli lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda fəaliyyəti dövründə qoyulub. Həmin vaxtlar ulu öndər Heydər Əliyev tərəfindən muxtar respublikada həyata keçirilən tədbirlər – milli dövlətçiliyin bərpası istiqamətində qəbul edilən qərarlar, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan aqrar islahatlar, qonşu ölkələrlə yaradılan iqtisadi, mədəni və humanitar əlaqələr muxtar respublikanın mətbuat orqanı olan “Şərq qapısı” qəzetində işıqlandırılırdı. Ulu öndər doğma vətənə – Naxçıvana qayıtdıqdan sonra ilk müsahibəsini “Şərq qapısı” qəzetinə verib, həmin müsahibədə qəzetin fəaliyyətini yüksək qiymətləndirərək deyib: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.***

Diqqətə çatdırılıb ki, muxtar respublika reallıqlarını tam olaraq öz nömrələrində əks etdirən “Şərq qapısı” qəzeti Azərbaycanın digər regionlarında da əhalinin marağını qazanaraq onların Naxçıvan həqiqətləri ilə tanış olmalarına şərait yaradıb.

“Ümummilli lider Heydər Əliyevin Naxçıvanda fəaliyyəti Azərbaycanın qurtuluş və müstəqillik tarixinin parlaq səhifəsini təşkil edib, dövlət orqanları və media arasında əlaqələr özünün yeni inkişaf mərhələsinə qədəm qoyub”, – deyən Rəhman Məmmədov vurğulayıb ki, ulu öndər Azərbaycana rəhbərliyi dövründə də hər zaman kütləvi informasiya vasitələrinin cəmiyyət həyatındakı roluna yüksək qiymət verib, jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısını öz fəaliyyətinin əsas istiqamətlərindən biri kimi qəbul edib. Ölkəmizdə söz, fikir və məlumat azadlığının təmin olunması, tam sərbəst şəraitdə yüzlərlə qəzet və jurnalın nəşri mətbu fəaliyyətin maneəsiz həyata keçirilməsinə yaradılmış şəraitin, mətbuata dövlət qayğısının bariz nümunəsidir.

Bildirilib ki, muxtar respublikamızda da dövlət-mətbuat əlaqələrinin inkişafı diqqətdə saxlanılır. Hazırda muxtar respublikada 1 muxtar respublika qəzeti, 8 şəhər və rayon qəzeti, 4 jurnal, universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio, 6 nəşriyyat vardır. Muxtar respublikada Televiziya və Radio Şurasının, Mətbuat Şurasının yaradılması və fəaliyyətinin genişləndirilməsi də bu sahədə işin keyfiyyətinə müsbət təsir göstərib. Muxtar respublikanın bütün rayonlarında fəaliyyət göstərən mətbuat orqanları normal iş şəraiti ilə təmin edilib, onların maddi-texniki bazaları gücləndirilib. “Şərq qapısı” qəzeti redaksiyası, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi yeni bina və avadanlıqlarla təmin edilib. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində quraşdırılan müasir çap avadanlıqları hesabına artıq muxtar respublikada işıq üzü görən bütün qəzet və jurnallar tam rəngli, yüksək poliqrafik keyfiyyətlə nəşr olunur.

Jurnalist kadrların hazırlanmasının, gənc jurnalistlərin işə cəlb olunmasının da mətbuatın inkişafında mühüm amil olduğunu qeyd edən Rəhman Məmmədov deyib ki, Naxçıvan Dövlət Universitetində Jurnalistika kafedrası fəaliyyət göstərir. Həmçinin buradakı “Universitet” televiziyası və “Nuhçıxan” radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə də yiyələnir, ixtisaslı kadr kimi yetişərək mətbuatın inkişafına öz töhfələrini verirlər. Universitetin Jurnalistika ixtisasının Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə və “Şərq qapısı” qəzetinə hamiliyə verilməsi də ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayır. Bunun nəticəsidir ki, bu gün muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışanların böyük əksəriyyəti gənclərdir.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın nazirlik, komitə və agentliklərində mətbuat xidmətləri fəaliyyət göstərir. Bu xidmətlər tərəfindən təşkilatların fəaliyyəti ilə bağlı materiallar hazırlanır və mətbuat orqanlarında çap olunur. Bu isə oxucu, tamaşaçı və dinləyicilərin dövlət orqanlarının fəaliyyətindən məlumatlı olmalarına, dövlət orqanları və media arasında əlaqələrin inkişafına öz töhfəsini verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri bu gün keçirilən konfransın dövlət orqanları və media arasında əlaqələrin genişləndirilməsində mühüm mərhələ olacağına inandığını bildirib və konfransın işinə uğurlar arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli bildirib ki, ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonrakı dövrdə mətbuatın inkişafında tamamilə yeni mərhələ başlanıb. Kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən zəngin qanunvericilik bazası yaradılıb. 1998-ci ildə Azərbaycanda ilk dəfə olaraq senzura ləğv edilib.

Ümummilli liderimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin kütləvi informasiya vasitələrinin inkişafına ciddi diqqət yetirdiyini vurğulayan Vüqar Səfərli qeyd edib ki, “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nın qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya



Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da dövlət başçısının bu sahədə atdığı uğurlu addımların məntiqi davamıdır. Yaradıldığı il, yəni 2009-cu ildə fondun hesabına 1 milyon 200 min manat vəsait köçürülüb, bu günədək köçürülən vəsaitlərin məbləği artıq 26 milyon 795 min manata çatıb. Azərbaycan milli mətbuatının yaranmasının 130, 135 və 140 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif edilməsi, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımlarının göstərilməsi, bir qrup jurnalistin mənzillə təmin olunması, jurnalistlər üçün binaların inşa olunması media nümayəndələrinin əməyinə dövlət tərəfindən verilən yüksək qiymətin bariz nümunəsidir.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu hər il yazı müsabiqələri keçirir. Həmin müsabiqələrdə muxtar respublikada fəaliyyət göstərən jurnalistlər də fəallıq nümayiş etdirirlər. Bu günədək muxtar respublika mətbuatında çalışan jurnalistlərin təqdim etdiyi 15 məqalədən 10-u yüksək peşəkarlıqla hazırlandığı üçün müsabiqənin qalibi seçilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru vurğulayıb ki, bu gün muxtar respublikada həyatın bütün sahələrində inkişaf, tərəqqi, yenilənmə var. Muxtar respublikada bütün sahələrdə əldə olunan böyük nailiyyətlər burada mətbuatın daha da inkişaf etməsinə şərait yaradıb.

Sonra diskussiya şəraitində işini davam etdirən konfransda “Palitra” qəzetinin baş redaktoru Namiq Əliyev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, “Ədalət” qəzetinin təsisçisi Aqil Abbas, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu, “Şərq qapısı” qəzetinin baş redaktoru Tural Səfərov, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Naxçıvan Muxtar Respublikası Mətbuat Şurasının üzvü Qəhrə Hüseynova, “APA-Holdinq”in prezidenti Vüsalə Mahirqızı, Naxçıvan Muxtar Respublikası Mətbuat Şurasının sədri Rövşən Hüseynov, “Trend” informasiya agentliyinin baş direktorunun müavini Arzu Nağıyev, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, “Şərqin səhəri” qəzetinin redaktor əvəzi Zaleh Novruzov, “Olaylar” informasiya agentliyinin baş direktoru və eyniadlı qəzetin baş redaktoru Yunus Oğuz çıxış ediblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli tədbirə yekun vuraraq qeyd edib ki, konfransda dövlət orqanları və media arasında əlaqələrin genişləndirilməsinə dair maraqlı təkliflər səsləndirildi, diskussiyalar aparıldı. Vüqar Səfərli fəallıq göstərdiklərinə görə tədbir iştirakçılarına minnətdarlığını bildirib.

Qeyd edək ki, oktyabrın 14-də paytaxt Bakıdan gələn kütləvi informasiya vasitələrinin rəhbərləri “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, “Əlincəqala” tarixi abidəsi və muzeyi, Culfa rayonu ərazisində yerləşən dünya əhəmiyyətli Gülüstan türbəsi ilə tanış olublar.

✍ **Rauf ƏLİYEV**

17 oktyabr Yoxsullugla Beynəlxalq Mübarizə Günüdür

# Muxtar respublikada əhalinin sosial rifahı diqqət mərkəzindədir

***Bəşəriyyəti narahat edən başlıca sosial problemlərdən biri də yoxsulluqdur. Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1992-ci il 22 dekabr tarixli qərarı ilə 17 oktyabr dünyada Yoxsulluqla Mübarizə Günü kimi qeyd olunur.***

Müstəqilliyimizin ilk illərində ölkədə tüğyan edən siyasi böhran və iqtisadi tənəzzül 1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra qısa zaman ərzində aradan qaldırılmış, ictimai-siyasi sabitlik bərqərar olmuş, iqtisadiyyatda mövcud geriləmə dayandırılmış və yeni inkişaf mərhələsinə keçid təmin edilmişdir. Keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda ulu öndərin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasət bütün sahələr üzrə inkişafı təmin etməklə yanaşı, yoxsulluğun azaldılması üçün də ciddi zəmin yaratmış, yoxsulluq səviyyəsinin minimum həddə endirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Ulu öndər Heydər Əliyevin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq olunmuş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf Dövlət Proqramı"nın icrası əhalinin sosial müdafiəsini gücləndirmiş, yoxsulluğun səviyyəsini önəmli dərəcədə azaltmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yoxsulluqla mübarizəni əsas prioritet elan edərək əhalinin sosial müdafiəsinin gücləndirilməsi, ölkədə yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirməkdədir. Ölkə başçısının 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" ölkədə iqtisadi və sosial sahədə müşahidə olunan müsbət meyillərin, o cümlədən əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması sahəsində tədbirlərin davam etdirilməsini təmin etmişdir. Dövlət proqramının icrası, habelə ölkə başçısının müvafiq fərman və sərəncamları ilə əməkhaqlarının, pensiya və müavinətlərin məbləğinin artırılması, yeni təqaüdlərin təsis edilməsi əhalinin gəlirlərinin artmasına və rifahının yüksəlməsinə, nəticədə, yoxsulluq səviyyəsinin azalmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən davamlı iqtisadi islahatlar iqtisadiyyatın dinamik inkişafını, makroiqtisadi göstəricilərin artımını, əhalinin rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasını təmin etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası nəticəsində makroiqtisadi səviyyəni xarakterizə edən göstəricilərdə özünü aydın şəkildə büruzə verməkdədir. Belə ki, Dövlət proqramının əhatə etdiyi 2003-2013-cü (10 il ərzində) illər ərzində sahibkarlıq fəaliyyəti genişlənmiş, yeni istehsal müəssisələri fəaliyyətə başlamış, sənaye sahəsində 45,4 dəfə, kənd təsərrüfatında 4,5 dəfə, tikinti sektorunda 14,2 dəfə, informasiya və rabitə sektorunda 9,7 dəfə artım olmuşdur. Bu dövrdə 58 min 460 yeni iş yeri açılmış, əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində sakinlərin sosial rifah halı yaxşılaşmış, yoxsulluq səviyyəsi 35,1 faizdən 4,5 faizə enmiş, yoxsul əhalinin sayı isə 6,8 dəfə azalmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası bu sahədə görülən işlərin davamlılığını təmin etmiş, muxtar respublikanın iqtisadi cəhətdən daha da qüdrətlənməsinə yeni imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" önümüzdəki 5 il ərzində məşğulluq siyasətinin əsaslarını müəyyən etməklə, əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsinə, müasir iqtisadi reallıqlar nəzərə alınmaqla əmək ehtiyatlarının əmək bazarına uyğunlaşdırılmasına və işaxtaranların, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsinə yeni imkanlar yaradır.

Dövlət proqramının icrası ilə bağlı muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılır, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədi ilə müəssisələrdə sorğu keçirilir. Bununla yanaşı, kompleks məşğulluq tədbirləri, o cümlədən əmək yarmarkaları, əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kursları təşkil olunur. Sosial müdafiəyə xüsusi ehtiyacı olanların və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluqlarını təmin etmək məqsədilə sosialyönümlü layihələr həyata keçirilir. Son 20 il ərzində məşğulluq xidməti tərəfindən 34413 nəfər, o cümlədən əmək yarmarkalarının təşkili nəticəsində 10727 nəfər iqtisadiyyatın müxtəlif sahələrində peşə və ixtisaslarına uyğun işlə təmin olunmuş, 3808 nəfər isə haqqıödənilən ictimai işlərə göndərilmişdir.

Sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar nəticəsində sosial müdafiəyə ehtiyacı olan insanlara, o cümlədən əlillərə, şəhid ailələrinə, tənha ahıllara, habelə sağlamlıq imkanları məhdud uşaqlara göstərilən sosial xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmiş, bir sözlə, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər fasiləsiz xarakter almışdır.

Hazırda muxtar respublikada sosial müdafiəyə ehtiyacı olan 16365 şəxsə müxtəlif növ sosial xidmətlər göstərilir. Ümumilikdə, müvafiq əhali qruplarına 37 növ aylıq və birdəfəlik müavinət, təqaüd və kompensasiya ödənilir. Sağlamlıq imkanları məhdud vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədilə 7121 sağlamlıq imkanları məhdud şəxsə sosial müavinət, 239 şəhid ailəsinə, 1620 müharibə əlili və iştirakçısına, habelə I qrup ümumi səbəbdən əlillərə Prezident təqaüdü ödənilir.

Sağlamlıq imkanları məhdud şəxslərin reabilitasiyası məqsədilə də işlər görülmüşdür. Qeyd olunan dövr ərzində 4984 nəfərə müxtəlif texniki-bərpa vasitələri verilmiş, 3018 nəfərə protez-ortopedik xidmət göstərilmiş, respublikamızın müxtəlif sanatoriya və pansionatlarında müalicə və istirahətləri məqsədilə 2497 nəfər göndərişlərlə təmin olunmuşdur.

Müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi də diqqət mərkəzindədir. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı, Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edərək sağlamlıq imkanları məhdudlaşan, 1941-1945-ci illər müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərdən 456 nəfər minik avtomobili ilə, 210 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evi ilə təmin olunmuşdur.

Aztəminatlı ailələrin sosial problemlərinin həlli, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədilə 2006-cı ildən ötən dövr ərzində aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə ünvanlı dövlət sosial yardımı ödənişi həyata keçirilmişdir. Ehtiyac meyarının davamlı olaraq artmasına baxmayaraq, sosial yardım alan əhalinin sayı ilbəil azalmışdır. Buna səbəb muxtar respublikada yaradılan yeni iş yerləri hesabına aztəminatlı ailələrdə əmək qabiliyyətli ailə üzvlərinin fəal əməyə cəlb olunmasıdır. 2006-cı ildən bu günədək ünvanlı dövlət sosial yardım alan 1814 aztəminatlı ailənin sosial cəhətdən reabilitasiyasına nail olunmuşdur.

Bu gün muxtar respublikada həyata keçirilən davamlı sosial-iqtisadi islahatların, o cümlədən əhalinin məşğulluğunun, sosial yardımın ünvanlılığının təmin edilməsinin məntiqi nəticəsidir ki, sakinlərin sosial rifah halı yaxşılaşmış, yoxsulluq səviyyəsi kəskin azalmışdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

---

***Culfa Rayon Mədəniyyət Evində yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun rayon birinciliyi keçirilib.***

## "Nuh yurdu" intellektual oyununun Culfa rayon birinciliyinə yekun vurulub

Birincilik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Təhsil Nazirliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və Naxçıvan Muxtar Respublikasının Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin birgə təşkilatçılığı ilə reallaşıb.

Birincilik başlamazdan əvvəl Culfa Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənli, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev və rayon Təhsil Şöbəsinin əməkdaşı Ramazan Abuzərov çıxış edərək bildiriblər ki, oyunun keçirilməsində məqsəd yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

Sonra oyuna start verilib. 8 komandanın iştirakı ilə keçirilən oyun yarımfinal və final mərhələlərindən ibarət olub. Finalda "Dardağ", "Ulduz", "İldırım" və "Zəka" komandaları mübarizə aparıblar.

Yekun nəticələrə görə Culfa şəhər 3 nömrəli tam orta məktəbin "Dardağ" komandası birinci yerə layiq görülüb. Ərəzin kənd tam orta məktəbinin "Zəka" komandası ikinci, Bənəniyar kənd tam orta məktəbinin "İldırım" komandası isə üçüncü olublar.

Qalib komandalara diplom, kubok və fəxri fərmanlar təqdim olunub.

---

## Milli Qəhrəmana həsr edilmiş sənədli film

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə 18 Oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə həsr olunmuş sənədli film nümayiş etdirilib. 410 gəncin izlədiyi film böyük maraq doğurub.

Qeyd edək ki, Yusif Vəli oğlu Mirzəyev 1958-ci il mayın 23-də Babək rayonunun Böyükdüz kəndində anadan olmuşdu. O, 1991-ci ildə könüllü olaraq cəbhə bölgəsinə getmiş, Goranboy, Ağdərə istiqamətlərində rəşadətlə vuruşmuş, 14 nəfərlik dəstəsi ilə bütün əməliyyatlarda iştirak etmiş, Ağdərənin 17 kəndinin azad edilməsində müstəsna xidmətlər göstərmişdir. 1993-cü il fevralın 19-da Ağdərədə gedən qeyri-bərabər döyüşlərin birində cəbhə yoldaşlarını mühasirədən çıxararkən qəhrəmancasına şəhid olan Yusif



Mirzəyev Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 27 mart 1993-cü il tarixli Fərmanı ilə ona ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

✍ **Ceyhun MƏMMƏDOV**

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***Dekan vəzifəsini tutmaq üçün***

1. Tarix-filologiya
2. Beynəlxalq münasibətlər və xarici dillər

***Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün***

1. Dünya iqtisadiyyatı
2. Təsviri incəsənət
3. Bələdiyyə və turizm
4. Rus dili və ədəbiyyatı
5. Coğrafiya
6. Fəlsəfə və sosial iş
7. Çağırışaqədərki hazırlıq və mülki müdafiə
8. Təməl tibb fənləri
9. Mühasibat uçotu və maliyyə
10. Əczaçılıq və stomatologiya

***Kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir***

1. Jurnalistika və dünya ədəbiyyatı – dosent – 1 yer (0,5 ştat)
2. İnformatika – müəllim – 1 yer; baş müəllim – 2 yer; dosent – 1 yer; dosent – 2 yer (0,5 ştat)
3. İqtisadiyyat – dosent – 1 yer; müəllim – 1 yer (0,5 ştat)
4. Dünya iqtisadiyyatı – dosent – 1 yer (0,5 ştat)
5. İngilis dili və metodika – dosent – 1 yer (0,5 ştat); müəllim – 4 yer
6. Tibbi klinik fənlər – dosent – 1 yer; baş müəllim – 1 yer
7. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi – baş müəllim – 1 yer
8. Kimya – müəllim – 1 yer
9. Musiqi təlimi – baş müəllim – 1 yer
10. Fiziki tərbiyə və idman oyunları – baş müəllim – 1 yer
11. Arxiv işi və muzeyşünaslıq – baş müəllim – 1 yer; müəllim – 1 yer
12. Fortepiano – baş müəllim – 2 yer; müəllim – 1 yer (0,5 ştat)
13. Orkestr alətləri və dirijorluq – baş müəllim – 2 yer; müəllim – 1 yer
14. Roman-german dilləri – baş müəllim – 1 yer; dosent – 1 yer; müəllim – 1 yer (0,5 ştat)
15. Təməl tibb fənləri – baş müəllim – 1 yer
16. Musiqişünaslıq və metodika – müəllim – 1 yer
17. Fəlsəfə və sosial iş – müəllim – 1 yer
18. Əczaçılıq və stomatologiya – müəllim – 2 yer (0,5 ştat)
19. İngilis dili və tərcümə – müəllim – 1 yer
20. Ümumi tarix – müəllim – 1 yer (0,5 ştat)
21. Fizika və energetika – müəllim – 2 yer (0,5 ştat)
22. Azərbaycan tarixi – müəllim – 1 yer
23. Mühasibat uçotu və maliyyə – müəllim – 1 yer
24. Bələdiyyə və turizm – müəllim – 1 yer
25. Teatr və mədəniyyətşünaslıq – müəllim – 2 yer (0,5 ştat)
26. Təsviri incəsənət – müəllim – 2 yer
27. Hüquq fənləri – müəllim – 2 yer (0,5 ştat)
28. Rabitə və informasiya texnologiyaları – müəllim – 2 yer (0,5 ştat)
29. Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi – müəllim – 1 yer
30. Çağırışaqədərki hazırlıq və mülki müdafiə – müəllim – 1 yer
31. Şərq dilləri və ədəbiyyatı – müəllim – 1 yer

*Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi.***
***Telefon: (036)545-23-66/10-01***

---

### *İtmişdir*

Kəngərli rayonunun Qıvraq qəsəbə sakini Novruzov Azadi Samir oğlunun adına 6 mart 2010-cu il tarixdə verilmiş hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Nehrəm kənd sakini Niyazova Zəhra Kərbəlayi İsmayıl qızının adına olan JN-2957 inventar nömrəli, 10300058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

---

**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Hüseynov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1050. Sifariş № 770**